# Uçot və hesabatın tərtib olunması proseslərinin avtomatlaşdırılması sahəsində

# Strategiyası

Hazırlayanlar:

Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi — Q.Əhmədov

Palata sədrinin elmi-metodik məsələləri üzrə müşaviri — N.Talıbov

**Bakı-2022**

**Mündəricat**

**Giriş..........................................................................................................3**

**1. Strategiyanın mahiyyəti və əhatə dairəsi.........................................3**

**2. Beynəlxaq  təcrübənin öyrənilməsi..................................................4**

**3. Nəzərdə tutulan təkmilləşdirmələr.....................................................6**

**4. Tədbirlər planı.....................................................................................8**

**İstifadə olunmuş ədəbiyyat siyahısı...................................................10**

# Giriş

Uçot və hesabatın tərtib olunması proseslərinin avtomatlaşdırılması sahəsində Strategiya, Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 15 sentyabr tarixli 1/518 nömrəli məktubundan irəli gələn vəzifələr və Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər) V.4-cü "Rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətləri" bölməsi, Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiya, Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 1.15-ci "Audit in innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyada nəzərdə tutulan tədbirlərin tətbiqi" bəndinə əsasən hazırlanmış plan-proqramın 4-cü "Uçot və hesabatın tərtib olunması proseslərinin avtomatlaşdırılması sahəsində strategiyasının hazırlanması" altbəndi nəzərə alınaraq hazırlanmışdır.

Strategiya (qədim yunanca στρατηγία – sərkərdə mədəniyyəti) uzun müddət əhatə edən ümumi, mürəkkəb məqsədə çatmaq üçün bir yol, ümumiyyətlə, hər hansı bir insan fəaliyyətidir. Strategiyanın vəzifəsi əsas məqsədə çatmaq üçün mövcud resurslardan səmərəli istifadə etməkdir (bir fəaliyyət metodu kimi strategiya əsas məqsədə birbaşa nail olmaq üçün kifayət qədər mövcud resursların olmadığı bir vəziyyətdə xüsusilə zəruri olur).

Müasir dünyada hərtərəfli rəqəmsallaşmanın artması biznesin və təsərrüfat proseslərinin də bu istiqamətdə dəyişməsinə və inkişafına təsir etmişdir. Müasir audit sahəsi də istisna deyil. Retrospektiv məlumatlara əsaslanan ənənəvi audit artıq müasir tələblərə cavab vermir. Gələcəyin auditi böyük məlumatlar bazasını az müddətdə təhlil edərək effektiv və perspektiv qərarlara yönəlmiş hesabatların hazırlanmasını təmin etməlidir. Bu səbəbdən müasir və gələcək dövrün auditi böyük informasiya sistemlərindən istifadə edərək məlumatların təhlilini aparmalıdır.

Qloballaşma sürətini nəzərə alaraq ümumilikdə uçotun və auditin rəqəmsallaşdırılması vacib hesab olunur, indiki zamanda artıq beynəlxalq auditor şirkətlərinin çoxu rəqəmsallaşdırma dövrünün gəlməsi ilə bərabər tətbiq etdikləri audit prosedurlarını artıq təkmilləşdirərək yeni mərhələyə keçiblər və artıq süni intellektin tətbiqinə başlayıblar.

## 1. Strategiyanın mahiyyəti və əhatə dairəsi

Bu strategiyanın əsas mahiyyəti auditdə uçot və hesabatlılıq proseslərinin avtomatlaşdırılması işlərini, auditorun şəxsi kabineti sistemini yeni səviyyəyə qaldırmaqdan, və bundan əlavə auditorların işini asanlaşdırmaqdan ibarətdir. Bu halda

auditor rahatlıqla öz işləri ilə məşğul ola bilər və asanlıqla bir neçə işi eyni vaxtda görə bilər. Şəxsi kabinetin tətbiqi yeni bir mərhələ olaraq auditin təşkilinin ayrılmaz bir hissəsi olacaq və orada auditorlar öz işlərini apara biləcəklər.

Strategiya ümumi olaraq auditorlar, audit sifarişçiləri və istifadəçiləri, habelə bu sahədə tədqiqatlar aparan şəxslər üçün nəzərdə tutulmuşdur.

Strategiyanın əsas məqsədi bir sahənin inkişafı istiqamətində uzunmüddətli planın hazırlanmasından ibarətdir və gələcəkdə resursların olduğu təqdirdə onların addım-addım həyata keçirilməsidir.

## 2. Beynəlxalq təcrübənin öyrənilməsi

Yeni əsrin çağırışlarını nəzərə alaraq belə bir strategiyanın hazırlanması məqsədəmüvafiq hesab olunmuşdur. Bu strategiya özündə hər bir yeniliyin auditdə tətbiqini ehtiva edəcək. Əlbəttə ki, rəqəmsallaşma prosesi də birdən-birə həyata keçirilmir və bunu nəzərə alaraq aşağıda bütün prosedurların addım-addım tətbiqini reallaşdırmaq daha asan olardı.

İlk öncə Azərbaycan Respublikasının Auditorlar Palatasında yeni yaradılmış auditorun şəxsi kabineti sisteminin təkmilləşdirilməsi nəzərdə tutulmalıdır, çünki sistemin özü həm dizayn cəhətdən, həm də funksionallıq cəhətdən istifadəsi asan olmalıdır.

Daha sonra yaradılmış sistemə auditin aparılmasına dair proqram təminatı daxil edilməlidir. Bildiyimiz qədər auditin aparılmasına dair çoxlu sayda və fərqli şəkildə proqram təminatları mövcuddur. Bura aiddir:

1) Case Ware Working Papers;

2) TeamMate;

3) Audit Workstation (NetWrix Active Directory Change Reporter);

4) AuditModern;

5) Audit XP Professional;

6) IT Audit;

7) ИНЭК-Аналитик;

8) AuditNET;

9) Экспресс Аудит: ПРОФ;

10) Audit Expert;

11) Ваш финансовый аналитик; və sair.

Əlbəttə ki, bu proqramların hərəsinin fərqli şəkildə funksionallığı vardır, lakin onu da qeyd etmək lazımdır ki, hamısı auditorun işini asanlaşdırmaq məqsədilə yaradılmışdır.

Bu gün bu sahədə çoxlu sayda müxtəlif platformalar mövcuddur və hər biri özünəməxsus şəkildə unikaldır, eləcə də hamıya məlumdur ki, beynəlxalq audit təşkilatları tərəfindən onların şəxsi istifadəsi üçün istifadə olunan müxtəlif proqram təminatı mövcuddur və onlar daim təkmilləşdirilir. Bu proqramların üstünlüklərinə aşağıdakılar daxildir:

● Məsafədən işləmək bacarığı;

● Beynəlxalq standartların daim tənzimilləşdirilən normativ bazası;

● İstifadəçiyə audit aparmağa kömək edəcək vasitələrdən istifadə etməklə auditin vaxtı sərfinin azaldılması;

● Planlaşdırma və risklərin qiymətləndirilməsi;

● Rəqəmsal verilənlərlə işləməklə mexaniki xəta riskinin minimuma endirilməsi;

● İş vaxtının səmərəli planlaşdırılması;

● Bu proqramın idarə edilməsi və digər proqramlarla sinxronizasiya detallarında böyük funksionallıq;

● Əməkdaş, müfəttiş, rəhbər və partnyor tərəfindən təsdiqlənmə prosesində funksionallıq, həmçinin sistem tərəfindən vaxtın göstərilməsi və s.;

● Hər bir dəyişiklik üçün hesabatlarda "Əvvəl" və "Sonra" dəyərlərinin göstərilməsi;

● Real vaxt rejimində xəbərdarlıqlar;

● Standart hesabatların geniş kitabxanası və təkmil hesabatlar yaratmaq imkanı;

● Active Directory status hesabatları;

● Hesabat şablonlarına əsaslanan poçt göndərişləri;

● Obyektin bərpası funksionallığı;

● Audit məlumatlarının uzunmüddətli saxlanması.

Bununla belə, yuxarıda göstərilən proqramların hamısında həm müsbət, həm də mənfi cəhətlər mövcuddur və bunlara təkcə qiymət göstəricisi deyil, həm də aşağıdakılar daxildir:

● Onların bəziləri informasiyanın mürəkkəb işlənməsi, qruplaşdırılması və yığılması imkanlarını nəzərdə tutmur;

● Başqalarında, daxili Windows alətlərindən istifadə edərək müxtəlif domen nəzarətçiləri jurnallarını birləşdirmək çətindir;

● Standart Windows alətlərindən istifadə edərək AD-də dəyişiklikləri yoxlamaq üçün sistem təşkil edilərkən nəzərə alınmalıdır ki, sistem jurnalına çoxlu sayda məlumatlar (çox vaxt lazımsız) yazıla bilir və bu, onun sürətlə doldurulmasına gətirib çıxarır.

## 3. Nəzərdə tutulan təkmilləşdirmələr

Sadalanan beynəlxalq təcrübələri nəzərə alaraq 2022-2025-ci illərdə Palatanın saytına və Auditorun şəxsi kabineti sisteminə yeni funksiyaların əlavə olunması nəzərdə tutulmuşdur, o cümlədən:

1) Auditor xidmətinin dəyərinin minumum məbləğini müəyyən edən kalkulyatorun hazırlanması;

2) Hesabatları təhlil etmə sisteminin yaradılması, audit üzrə proqram təminatının yaradılması;

3) "Ağıllı müqavilə" sisteminin yaradılması və şəxsi kabinet sisteminə inteqrasiya olunması;

4) Auditorlar üçün müvafiq sorğu vərəqələrin hazırlanması və şəxsi kabinet sisteminin "Təlimatlar" bölməsində yerləşdirilməsi;

5) Palatanın saytı vasitəsi ilə auditorla müştəri arasında müvafiq interaktiv əlaqə və kargüzarlıq sisteminin yaradılması;

6) Auditorlar barədə məlumatların anketləşdirilməsi və müvafiq resurslarda yerləşdirilməsi;

7) PL/TMM üzrə şəxsi müvafiq proqram təminatının əldə edilməsi və şəxsi kabinet sisteminə inteqrasiya olunması;

8) Auditorun şəxsi kabineti sisteminin dizaynın təkmilləşdirilməsi;

9) "Bulud" sistemlərində əminliyin təmin edilməsi üzrə xidmətlər üçün auditdə kibertəhlükəsizlik imkanlarının gücləndirilməsi və yaradılmış sistemlərdə SSL sertifikatların quraşdırılması.

Bütün yuxarıda sadalanan işlər barədə ətraflı şəkildə aşağıda məlumat verilir:

Auditorların bağladıqları müqavilələr üzrə minimum məbləğləri müəyyən etmək üçün müvafiq göstəriciləri daxil edilərək, istənilən maraqlı tərəf Palatanın rəsmi internet səhifəsində auditlərin qiymətlərini müəyyən edə bilərlər.

Sistemdə hazırlanan məlumatları artıq hazır cədvəllər və barqraflar formasında istifadəçi öz kompüterinə yükləyə bilər. Bu cədvəllərdə fərqli göstəricilər olacaq, misal üçün: auditorun yoxladığı subyektlərin sayı, onların keçən il ilə müqayisəsi, bağladığı məbləğlər üzrə müqayisələr və aylar üzrə fərqlər, göstərdikləri xidmətlərin fərqliliyi və sair, bunlar kimi məlumatlar əks olunacaqdır.

Yuxarıda sadalananlardan əlavə olaraq sistemə "Ağıllı müqavilə" funksiyaların başqa bir formada salınması planlaşdırılır, onun əsas müsbət cəhətləri olaraq aşağıdakılar nəzərdə tutulmuşdur:

● Subyekt və auditor arasında müqavilənin bağlanılıması sistem üzərindən olmalıdır və ilkin məlumatlar sistemə daxil olunmadıqda sistem müqaviləni qeydiyyata almayacaq;

● Subyekt və auditor arasında bağlanan müqavilə avtomatik hazırlanmış sorğu əsasında keçiriləcəkdir və əgər auditor tövsiyyə olunan minimum kriteriyalardan müqaviləni aşağı həddə bağlamaq niyyətindədirsə, o halda onun qarşısına təsdiqləmə paneli gələcək (yəni auditor bu meyarlardan məlumatlıdır və bu müqavilənin bağlanılmasına əmindir);

● Əgər subyekt artıq hansısa bir auditorla müqaviləni bağlayıbsa və subyekt bilərəkdən başqa auditorlar müqaviləni daha aşağı qiymətə bağlamaq istəyirsə, o halda başqa auditorun qarşısına bağlamaqdan əvvəl yeni panel çıxacaq ki, artıq audit etmək istədiyi subyekt artıq başqa auditor tərəfindən aparılır (sərbəst auditorun adı, soyadı və atasının adı və ya auditor təşkilatıdırsa onun adı çıxacaq) və təsdiqləmə paneli olacaq, auditor onu təsdiqləsə, deməli bilərəkdən başqa auditorun işinə daxil olunur;

● Auditor istədiyi halda, öz peşə fəaliyyətini avtomatik olaraq, sığortalaya bilər, bunun üçün sistemə bütün sığorta təşkilatların adları sistemə salınacaq;

● Əlbəttə ki, istənilən halda sistemi daha da mürəkkəbləşdirmək olar və qeyd olunan bölmələri daha da sərtləşdirmək mümkün olacaq, yəni məhdudiyyətlərin sistemə salınması, auditor haqsız rəqabətlə məşğul olarsa, o halda sistem tərəfindən funksiyaların bloklaşdırılması və sair (lakin bu sonrakı mərhələlərə aiddir).

Auditorlar öz işlərinə başlamaqdan əvvəl işin qiymətini müəyyən etmək üçün müvafiq sorğular aparırlar və auditorların işini asanlaşdırmaq məqsədilə bu sorğuların bir neçəsini hazırlamaq və şəxsi kabinet sistemində “Təlimatlar” bölməsində yerləşdirmək mümkündür.

Palatanın saytı vasitəsi ilə auditorla müştəri arasında interaktiv əlaqə sisteminin yaradılması.

Bu sistem Auditorlar Palatasının saytı vasitəsi ilə öz funksionallıqlarını həyata keçirəcəkdir, saytda müştəri auditorun öz arzularına uyğun olaraq filterləşdirəndə, yeni panel açılacaq ki, “təklif göndər”, orada müştəri öz məlumatlarını daxil edərək auditora şəxsi kabinet sisteminə kommersiya təklifini göndərə bilər və auditor bu təkliflə razılaşsa o, halda müştərnin qeyd etdiyi email ünvanı və ya mobil nömrə vasitəsi ilə razılaşaraq işinə (müvafiq xidmət) başlaya bilər.

Auditorlar Palatasının rəsmi internet səhifəsində auditorların anketlərinin yerləşdirilməsi 2022-ci ildə planlaşdırılır. Auditorların anketləşdirilməsi əsasən müştəri

üçün məlumat xarakteri daşıyacaq və istifadəçi istədiyi zaman orada bu məlumatlarla ətraflı şəkildə tanış ola bilər.

PL/TMM üzrə beynəxalq təcrübədə olan proqram təminatları barədə məlumatların toplanmasından sonra, yeni bir sistemin qurulması və auditorun şəxsi kabineti sisteminə salınması. Burada bu proqram təminatı auditorlara köməklik etmək məqsədilə yaradılır və əlavə olaraq onların müştərilərini yoxlamaq funksiyasını daşıyacaq.

Auditorun şəxsi kabineti sisteminin dizaynın təkmilləşdirilməsi əsas məqam olaraq sistemin funksionallıqlarını auditorlar tərəfindən daha da asanlıqla anlamasını özündə ehtiva edir.

Əlavə olaraq sistemin blockchain sistemi kimi, kibertəhlükəsizlik sisteminin təkmilləşdirilməsi üçün müvafiq prosedurların həyata keçirilməsi və müntəzəm olaraq sistemin zəif nöqtələrin təkmilləşdirlməsi diqqət mərkəzində olmalıdır. Blokchain sisteminin kibertəhlükəsizliyi sistemə zəncirlər vasitəsi ilə həyata keçirilir və növbəti zənciri sındırmaq üçün ondan qabaqkı zəncirin sındırılması tələb olunur, beləliklə sistemin kibertəhlükəsizliyini asanlıqla sındırmağa artıq sistem tərəfindən icazə verilməyəcək.

## 4. Tədbirlər planı

| Sıra №-si | İşin adı | Müddət | Qeydlər |
|---|---|---|---|
| 1.1. | Audit üzrə beynəlxalq proqram təminatların təhlili və auditorun şəxsi kabineti sisteminə daxil edilməsi üzrə layihənin hazırlanması, lazımı təqdirdə Palata üzvləri ilə razılaşdırılması üçün layihənin onlara göndərilməsi | 2022-ci il | |
| 1.2. | Hazırlanmış layihənin tətbiqi üçün lazımı hazırlıqları həyata keçirilməsi və sistemə yeniliklərin əlavə edilməsi | 2022-2023-ci illər | |
| 2.1. | Hesabatı təhlil etmə funksiyasının əlavə edilməsi üzrə layihənin hazırlanması və bütün üzvlərlə | 2022-2023-ci illər | |

| | | | |
|---|---|---|---|
| | razılaşdırılması (təkliflər olduğu halda təkmilləşdirilməsi) | | |
| 2.2. | Hesabatı təhlil etmə funksiyasının layihəsinin tətbiqi | 2023-2024-ci illər | |
| 3. | “Bulud” sistemlərində əminliyin təmin edilməsi üzrə xidmətlər üçün auditdə kibertəhlükəsizlik imkanlarının gücləndirilməsi və yaradılmış sistemlərdə SSL sertifikatların quraşdırılması | Müntəzəm | |
| 4. | Şəxsi kabinet sistemində “Təlimatlar” bölməsində müvafiq xidmətlərə uyğun olaraq hazır sorğu vərəqələrin yerləşdirilməsi | 2022-ci il | |
| 5. | Auditorlar barəsində məlumatların anketləşdirilməsi və Auditorlar Palatasının saytında yerləşdirilməsi | 2022-ci il | |
| 6. | PL/TMM üzrə müvafiq sistemlərin əldə edilməsi və sistemə inteqrasiyası | 2022-2024-ci illər | |
| 7. | Sifarişçi və auditor arasında dialoqun təşkili, Palatanın saytı vasitəsi ilə həyata keçirilməsi istiqamətində işlərin görülməsi | 2023-cü il | |
| 8. | Auditor xidmətinin dəyərinin minimum məbləğin müəyyən edilməsi üçün Auditorlar Palatasının saytında auditin dəyərini hesablamaq üçün onlayn kalkulyatorun yaradılması | 2023-ci il | |
| 9. | Auditorun şəxsi kabineti sisteminin dizaynın təkmilləşdirilməsi | 2023-cü il | Əlavə dizaynerlə müqavilə bağlanaraq proqramçılar ilə |

| | | | |
|---|---|---|---|
| | | | birlikdə müvafiq işlər aparılmalıdır |
| 10. | Auditorun şəxsi kabineti sistemində ranking sistemi vasitəsi ilə müəyyən reytinq cədvəllərin yaradılması və sistem tərəfindən onların təhlili | 2023-2024-ci illər | |
| 11. | “Ağıllı müqavilə” sisteminin yaradılması və tətbiqinin həyata keçirilməsi | 2024-2025-ci illər | |

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası (2021-2030-cu illər);
2. Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiya;
3. Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 15 sentyabr tarixli 1/518 nömrəli məktubu;
4. https://www.easy-tech.ru/articles/it_audit_glavnye_tseli_i_osnovnye_etapy/
5. https://www.caseware.com/products/working-papers
6. https://www.netwrix.com/download/QuickStart/NetWrix_Active_Directory_Change_Reporter_Freeware_and_Standard_Quick_Start_Guide.pdf
7. http://auditmodern.ru/
8. https://www.auditxp.ru/products/auditxp-professional/
9. https://www.audit-it.ru/software/auditing/445846.html
10. http://elib.fa.ru/art2015/bv2420.pdf/download/bv2420.pdf
11. https://www.tadviser.ru/index.php/Продукт:Audit_Expert